BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Humanitar elmlər seriyası 2007*

# «FÜYUZAT» VƏ FÜYUZATÇILAR

**Ş.Q.VƏLİYEV**
*Bakı Dövlət Universiteti*

Azərbaycanda nəzəri-estetik və ədəbi-bədii fikir tarixin ən qədim zamanlarından bu günədək daim zənginləşməkdə olub, bir sıra görkəmli şəxsiyyətlər yetişdirib, bədii sənətkarlıq, metod və cərəyanların inkişafına təkan verib, mövzu və problemlər müxtəlifliyi, təsvir və ifadə vasitələrinin çoxçeşidliyi ilə seçilib. Bu tarixi ədəbi-bədii təkamüldə XX əsrin əvvəlləri (1900-1920) əhəmiyyətli mərhələ kimi ciddi elmi-ictimai maraq doğurur. Həmin dövrdə ədəbiyyatımız sadəcə yeni tarixi mərhələyə daxil olmur, həm də əsaslı bədii-estetik keyfiyyət dəyişmələrinə, ictimai-siyasi məzmunu ilə yeni yaradıcılıq meyl və metodlarının, cərəyan və üslublarının formalaşmasına meydan açırdı. Ədəbiyyatımızdakı ideyalar aydınlığı və müxtəlifliyi bədii sənət palitrasının təsvir və ifadə vasitələri baxımından zənginləşməsinə təsir göstərir, ənənəvi duyum və deyim tərzinin yerini müasir inikas üsulları, poetik təhkiyə tərzi alır, yeni qəhrəmanlar silsiləsi milli istiqlal fikrinin daşıyıcılarına çevrilirdilər...

«Füyuzat» jurnalının ilk nömrəsi 1906-cı ilin noyabr ayının 1-də Bakıda məşhur maarifçi-milyonçu Hacı Zeynalabdin Tağıyevin pulu və mütəfəkkir Əlibəy Hüseynzadənin redaktorluğu ilə nəşr olunub. «Füyuzat»ın 1906-1907-ci illər ərzində 32 nömrəsi çıxmışdır. Jurnal milli ictimai fikir tariximizdə təkanverici xidmətləri ilə seçilmiş, Füyuzat ədəbi məktəbinin yaranmasına səbəb olmuşdur. «Təzə həyat», «Tərəqqi», «Yeni Füyuzat», «Bəsirət», «Həqiqət», «Şəlalə», «İqbal», «İttifaq», «Dirilik», «Açıq söz», «Qurtuluş», «Yeni qurtuluş» kimi mətbuat orqanlarının müəllif heyəti və onların ideya-siyasi, ədəbi-mədəni mövqeyi bunu təsdiqləyir.

Jurnal «Kaspi» mətbəəsində çap edilirdi. Onun titulunda mahiyyəti ilə bağlı yazılırdı: «ədəbi, fənni, siyasi, ictimai, müsəvvər, həftəlik türkcə məcmuəyi-islamiyyədir». Burada mövzu müxtəlifliyi, elmi-fənni yazılar, ədəbi-bədii və ictimai-siyasi məqalələrlə yanaşı, dünya ədəbiyyatından tərcümələrə, maarif, səhiyyə, tarix, coğrafiya və s. xüsusi əhəmiyyət verilirdi. «Füyuzat» jurnalı sadəcə ictimai-siyasi fikir tariximizi, mədəni inkişaf istiqamətlərimizi öyrənmək baxımından deyil, həm də ədəbi əlaqələrimizi aydınlaşdırmaq üçün ciddi əhəmiyyət daşıyır. Bu istiqamətlər aşağıdakılardır: Azərbaycan-Türkiyə, Azərbaycan-Rusiya, Azərbaycan-İran, Azərbaycan-Avropa.

XIX əsrdə M.F.Axundov Azərbaycan mühiti üçün Qərb və Şərq mədəniyyətlərinin, o sıradan ədəbi-bədii düşüncə tərzlərinin sintezinə

nail olan fenomenal bir şəxsiyyət, iki tərəfin müxtəlifliyini özündə ehtina edən mütəfəkkir idi. XX əsrin əvvəllərində ictimai-mədəni xidmət arenasına çıxan «Füyuzat» və «Molla Nəsrəddin» ədəbi məktəbləri isə öz mənbəyini həmin fenomendən alan və ədəbi-mədəni intibah tariximiz üçün paralel istiqamətli (romantik və satirik istiqamət) işıq seliaxını rolu oynayan, habelə milli mədəniyyət nümunəsi və bütövlükdə dünya standartlarına cavab verən bədii sənət yaddaşımızdır. Bütöv bir milli mədəniyyətin iki müxtəlif tərəfini təmsil edən bu mətbuat orqanları («Füyuzat» və «Molla Nəsrəddin») yanlış olaraq barışmaz tərəflər kimi qələmə verilmişdir. Bu ziddiyyətin aradan geniş planda qaldırılması ciddi elmi əhəmiyyət kəsb edir.

«Füyuzat» jurnalının materialları ilə əsaslı tanışlıq belə bir qənaəti söyləməyə imkan verir ki, «Kitabi-Dədə Qorqud» qədim dövrdə, Füzuli irsi XVI əsrdə ümumtürk dəyərlərini mühafizə baxımından nə dərəcədə əhəmiyyətlidirsə, XX əsrin əvvəllərində həmin qiyməti yaşadan abidə «Füyuzat»dır. Bu ictimai-tarixi siqlətinə və xüsusi ədəbi məktəb yaratmasına görə də «Füyuzat» və füyuzatçıların fəaliyyəti və yaradıcılığı bu gün aktuallıq kəsb edir.

Tarixin ən qədim dövrlərindən günümüzə qədər Azərbaycanda məslək-ideya, əqidə axtarışları, milli əxlaqi inkişaf problemləri ədəbiyyatla bağlı olmuşdur. XX əsrin əvvəllərində bu bağlılıq milli tərəqqinin bütün sahələrinə təsir edir, Azərbaycan istiqlal hərəkatının enerji mənbəyinə çevrilir. Həmin məslək və əxlaq bağlılığına əsaslanan milli ədəbi məktəblər – Molla Nəsrəddin və Füyuzat ədəbi məktəbləri ictimai fikir səhnəsinə daxil olur. Bu ədəbi məktəblər əsas nəşr orqanları ilə adlansalar da bir sıra digər qəzet və jurnallar da həmin mövqeləri təmsil etmişdir. «Molla Nəsrəddin» (C.Məmmədquluzadə) və «Füyuzat» (Ə.Hüseynzadə) jurnalları bir-birinə məslək baxımından radikal müxalifətdə olmasalar da, bədii-estetik düşüncə qarşıdurmasında oldular və beləliklə də müxtəlifliyin birliyi sayəsində hər iki tərəfin nümayəndələri Azərbaycan Xalq Cümhuriyyətinin müştərək ideoloji üstqurumunu yaratdılar. Bu zaman Füyuzat ədəbi məktəbinin nümayəndələrini ən çox aşağıdakı əxlaq və məslək xüsusiyyətləri, ideya-bədii faktorlar maraqlandırır və fərqləndirirdi:

I. Füyuzatçılar sivil normalara uyğun, demokratik prinsiplərə əsaslanan hüquqi dövlət istəyini açıq bəyan edir, «Hürr və demokrat» Azərbaycanın ümumtürk kontekstində, habelə müstəqil dünya dövlətləri sırasında yerini müəyyənləşdirməyə çalışırdılar. Ümumbəşəri sosial siyasi və fəlsəfi düşüncə modelindən bəhrələnmək və milli tarixi düşüncə kompleksinə əsaslanmaqla milli istiqlal ideyasını, məsləkini formalaşdırmağa ardıcıl, şüurlu xidmət etmək füyuzatçıların ictimai-siyasi funksiyasına daxil idi. Odur ki, gerçək həyatda inqilabi-demokratizm fransız kommunarları, Rus inqilabçı-dekabristləri və Osmanlı gənc türklərinin təcrübəsinə istinadən gücləndirilirdi.

II. «Gülüstan» (1813) və «Türkmənçay» (1828) müqavilələrindən sonra ikiyə parçalanan, bunun nəticəsində ikitərəfli istismar olunan Azərbaycanın tarixi taleyi füyuzatçıların (o sıradan Ə.Hüseynzadə, M.Hadi, H.Cavid, A.Səhhət, A.Şaiq, Ə.Kamal,H.S.Ayvazov, A.Sur, Ə.Cavad, Ə.Müznib, C.Cabbarlı və başqalarının) diqqət mərkəzində dayanırdı. Onlar milli maarifçilik ideologiyasına və İsmayıl bəy Qaspralının «dildə, fikirdə, işdə birlik» düsturuna əsaslanmaqla yeni, özəl

məslək istiqaməti arayırdılar. Bu XX əsrin əvvəllərində Ə.Hüseynzadənin yeni nəslin əxlaq kamilliyini qorumaq məqsədilə tezis şəklində ortaya atdığı məşhur «Bizə Fədai lazımdır: Türk hissiyyatlı, islam etiqadlı, avropa qiyafəli fədai!» – fikrinin «türkləşmək, islamlaşmaq müasirləşmək» şəklində düstur halına gətirilməsi nəticəsində reallaşdı ki, məslək və əxlaq vəhdətini mükəmməl ifadə etdiyinə görə müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi dövlət bayrağında mavi, yaşıl, qırmızı rənglərlə simvolizə edilmişdir. Bu zaman məslək və əxlaq kamilliyinin vəhdətini ifadə edən Turançılıq ictimai-fəlsəfi düşüncədə yer alır, türklərin müştərək mədəni-mənəvi birliyinin böyük bir ərazidə, Adriatik dənizindən Çin səddinə qədərki coğrafi ərazidə ifadəçisinə çevrilirdi. Beləliklə, türk mədəniyyətinin ortaq dəyərlərinə yenidən təhlil və qiymət verilir, onlar tədqiq, şərh və təbliğ olunur, ədəbi-bədii düşüncədə, habelə məslək savaşında və əxlaqda öz əksini tapırdı.

III. Turançılıq ideyasını yürüdərkən füyuzatçılar hər şeydən öncə türklük tarixi və əxlaqi-mədəni dəyərlərini öyrənməyi, təbliğ etməyi, daha dəqiq desək «Türklər kimdir və kimlərdən ibarətdir?» (Ə.Hüseynzadə) sualına cavab tapmağı başlıca vəzifələrdən sayırdılar. Bunun nəticəsində də füyuzatçıların məsləki və əxlaqında tarixi ənənəçilik prinsipləri mühüm rol oynayır, irs-varislik əlaqələrinin bərpasına və möhkəmləndirməsinə xidmət göstərirdi. Füyuzatçılar turançılığa mifik-romantik həqiqət kimi baxmır, onun elmi-nəzəri əsaslara malik sosial-fəlsəfi düşüncə çərçivəsində deyil, bütövlükdə milli-ictimai fikir hüdudlarında yürüdülməsinə xidmət göstərirdilər. Bunun nəticəsidir ki, M.Ə.Sabirin «Fəxriyyə» adı ilə çap etdirdiyi satirik şeiri türklük tarixinə daha çox elegiya (ağı) təsiri bağışlayır, təriqət ayrılıqları, sünni-şiə parçalanmaları və s. qəbul olunmurdu.

Füyuzatçılar Turan mədəni-mənəvi birliyinin əsası kimi ortaq dil, kültür və tarixin öyrənilməsini də təxirəsalınmaz vəzifə sayırdılar. Onların ortaq dil quruculuğu ilə bağlı apardığı eksperimentlər, tarix və mədəniyyət araşdırmaları mədəni-mənəvi birlik, vəhdət məsləkinin doğurduğu yetkin, milli əxlaq tipi kimi yüksək qiymətləndirilməli, türk superetnosunun özünüdərk potensialı sayılmalıdır.

IV. Əxlaqi dəyərlərə münasibətdə qoruyucu (mühafizəkar) mövqe tutan füyuzatçılar məslək-əqidə yolunda mübarizlik, sədaqət, döyüşkənlik, müasirlik prinsiplərindən çıxış edir, yeni dövrün ictimai həqiqətlərinə rasional-təhlilçi yöndən yanaşmağı məqsədəuyğun hesab edirlər. Bunun nəticəsidir ki, «Füyuzat» ədəbi məktəbi nümayəndələrinin yaradıcılığında milli dövlət, azadlıq-hürriyyət, müxtəlif hüquq problemləri, vətənsevərlik, humanizm və s. bu kimi anlayışların tez-tez işləndiyini, onlara məslək əxlaqı baxımından birmənalı müsbət qiymət verildiyini görmək mümkündür. Ə.Hüseynzadənin «Halü-vətən», A.Səhhətin «Vətən», «Şair, şeir pərisi və şəhərli», A.Şaiqin «Həpimiz bir günəşin zərrəsiyiz» kimi əsərlərində, M.Hadinin «Əlvahi-intibah» poemasında həmin mövqeyin daha aydın ifadə edildiyini görmək mümkündür. Bu mənada füyuzatçıların vətəndaşlıq məsləkindən doğan əxlaqi davranışları və bədii yaradıcılıq prinsipləri gənc türklərin, habelə onların mövqeyini dolğun şəkildə ifadə edərək:

Ölərsəm görmədən millətimdə ümmid etdiyim feyzi,
Yazılsın səngi-qəbrimdə vətən məhzun, mən məhzun –

deyən N.Kamalın məslək düşüncəsi və əxlaq prinsipləri ilə tam uyğun

gəlir.

V. Əxlaqi-mənəvi təkamüldə katarzis problemini vacib şərt sayan füyuzatçılar məslək əxlaqına da eyni mövqedən yanaşır, bu zaman ictimai-siyasi partiya, maarif ocaqları, ədəbi dərnəklər, mətbuat orqanları və s. ilə yanaşı bədii ədəbiyyatın fövqəladə əməli rol oynadığını xüsusi qiymətləndirirdilər. Füyuzatçılar klassik dünya ədəbiyyatı ilə çağdaş milli bədii təfəkkürün əlaqələrinə mühüm diqqət yetirir, bu baxımdan Anadolu-türk, fransız, alman, rus, ingilis, ərəb, fars və s. xalqların ədəbi irsinə, xüsusilə də ictimai-siyasi məzmun daşıyan və məslək əxlaqının təbliğinə həsr olunan inqilabi-demokratik ruhlu ədəbiyyat yaranır və yeni dövr vətəndaşlarımızın əxlaqi-məfkurəvi tərbiyəsinə xidmət göstərirdi. Ziya paşa, N.Kamal, İ.Şinasi, M.Ə.Rəcaizadə, Ə.Hamid, T.Fikrət, A.Cövdət, R.Tofiq, X.Ziya, C.Şəhabəddin, M.A.Ərsoy, X.Ə.Adıvar, M.Ə.Yurdaqul, S.Nəzif və onlarca başqalarının yaradıcılığına mütəmadi maraq da buradan doğurdu.

VI. Füyuzat ədəbi məktəbində məslək əxlaqının formalaşması və inkişafına dünya romantizmindən bəhrələnmənin də mühüm təsiri olmuşdur. Füyuzatçılar dünya romantiklərinə, romantik bədii metoda istinad etməklə ideyalılıq-məsləkçilik prinsipini asanlıqla qoruya bilir, mənəvi-əxlaqi dəyərlərin bu prinsip əsasında təkmilləşdirilməsini məqsəd bilirdilər. Onlar mücərrəd mövqeli idealistlər kimi çıxış etmir, hər bir ideya, məslək və fikrin əsasında konkret ictimai əməlin dayandığını bildirirdilər. Bu mənada füyuzatçıların

Ayinəsi işdir kişinin, lafa baxılmaz
Şəxsin görünür rütbeyi-əqli əsərində (Ziya paşa) –

fikrinə mütəmadi istinad etməsi onların məsləki və əxlaq mövqeyini aydınlaşdırmağa imkan verir. Füyuzatçılar hər bir ideyanın, məsləkin dürüstlüyü və faydalılığını ictimai iş, konkret əməllə müəyyənləşdirir, iş və əməl uyğunluğunu fəaliyyətin öncül meyarı sayırdılar. Həmin tələbi romantik sənətkarların həyat və yaradıcılıq həqiqətləri ödədiyindən füyuzatçılar onlara böyük maraq göstərir, əxlaqi cəhətdən saf, təmiz məhəbbət və sosial mücadilə qəhrəmanlarını beləcə ədəbiyyat səhnəsinə göstərirdilər. F.Şiller, İ.V.Göte, N.Kamal, Ə.Hamid, T.Fikrət və onlarca başqaları kimi...

Ancaq bu yolla «parçalanmış və talan olan Azərbaycan»ın (M.Rəsulzadə) faciəvi tarixi taleyini dərk edən, onun istiqlalı uğrunda ardıcıl mübarizə aparan, mükəmməl məslək əxlaqına sahib vətəndaş yetişdirmək mümkün idi.

XIX əsrin birinci yarısından, ən çox da «Gülüstan» (1813) və «Türkmənçay» (1828) müqavilələrindən sonra Azərbaycan ictimai-fəlsəfi və ədəbi-bədii fikrində yaranan dəyişikliklər, xalqın sosial hadisə, proses və faktlara yeni baxışı bütün XIX əsr ərzində və XX əsrin əvvəllərində milli istiqlal hərəkatının təkan nöqtəsi oldu. Vətən və dövlətin ikiyə parçalanmasını xalq ağrı kimi yaşasa da, hər iki tərəfdə müxtəlif üslublu bədii düşüncə tərzi formalaşsa da, ədəbiyyat həmin ağrıdan bəhrələndi və çoxşaxəli inkişaf yolu keçdi. Əgər ilk mərhələdə milli dövlət quruculuğunu, sosial-siyasi hüquqlarını itirən, müstəmləkə halına salınan xalqın fikir adamları elmi-ictimai fəaliyyətində və ədəbi-bədii yaradıcılığında daha çox mövcud vəziyyətin izahına, maarifçilik ideologiyasına, xalqın özünüdərki, özünütəşkili məsələlərinə üstünlük verirdisə,

iкinci mərhələdə daha çox özünüifadə, özünütəsdiq məsələləri rəhbər tutulurdu. Azərbaycan romantizminin məşhur nümayəndəsi, ardıcıl füyuzatçı şair M.Hadinin aşağıdaкı misraları bir çox həqiqətlər кimi bu ümummilli mövqeyi də aydınlaşdırmağa parlaq nümunədir. O yazırdı:

İmzasını qoymuş miləl övraqi-həyatə,
Yox millətimin xətti bu imzalar içində...
...İç-iç nə qədər istər isən qanimi, zalim,
Bir gün görərəm qanini səhbalər içində.

(M.Hadi. Zümzümati-təhəssürat, yaxud qarışıq xəyallar, «İttifaq» qəzeti, 1 deкabr, 1908-ci il №1)

«Füyuzat»çılar ictimai tarixlə ədəbi-mədəni fiкrin təкamül yolunu paralel şəкildə öyrənir, türк xalqlarının vahid кöкə bağlılığını ayrıca vurğulayırdılar. Onlar türк xalqlarının ədəbiyyatını ortaq dəyərləri, кeyfiyyətləri ilə birgə izaha çalışsalar da, milli-etniк məhdudiyyətə qapılmır, başqa xalqlarla, ən çox da Şərq xalqları ilə müqayisəli şəкildə təhlilə üstünlüк verirdilər. Bu zaman Azərbaycan-türк ədəbiyyatının fərdi xüsusiyyətləri və onun ümumtürк xalqları, habelə başqa Şərq xalqları ilə ortaq yaratdığı ədəbiyyatın sintetiкliyi şərh olunurdu. Xatırlatmaq lazımdır кi, bu bir tərəfdən «füyuzat»çıların ədəbi-tarixi gerçəкliyə baxış səviyyəsi ilə əlaqədardısa, digər tərəfdən predmetin özündən doğurdu. «Füyuzat»çılar analitiк təhlil və fərdiləşmə prinsipinə müqayisəli tədqiqatda üstünlüк versələr də, türкlüк dəyərini bütöv bir sistem halında görməyi başlıca şərt sayırdılar.

## ƏDƏBİYYAT


1. Şamil Vəliyev. Füyuzat ədəbi məкtəbi. Baкı, «Elm», 1999.
2. Ali Haydar Bayat. Hüseynzade Ali bey. İstanbul. 1998.
3. Əli Nazim. Türк ədəbiyyatşünaslığında pantürкizm və кapitalizm əleyhinə. Baкı, 1930.
4. Hüseynzadə Əli bəy. Qırmızı qaranlıqlar içində yaşıl işıqlar. Baкı, Azərnəşr, 1996.
5. Hüseynzadə Əli bəy. Siyasəti-fürusət. Baкı, Elm, 1994.
6. Ziya Göyalp. Türкçülüyün əsasları. Baкı, Azərnəşr, 1991.
7. Hüseynov Şirməmməd. Müstəqilliyin çətin yolu: Biz hara gediriк? Baкı, Azərnəşr, 1996.


## «ФЭЮЗАТЬ» И ФЭЮЗАТИСТЫ


Ш.Г.ВЕЛИЕВ


## РЕЗЮМЕ


Журналисты, поэты, писатели, драматурги, литературно-художественные органы, которые относились к журналу «Фэюзать» и фэюзатистам, с политической точки зрения длительное время не обучались и во времена Советской власти были запрещены цензурой с этикетами как пантуркисты, панисламисты и космополиты. Они заняли важное место в истории общественно-культурной жизни Азербайджана.

Фэюзатисты достойны нашего внимания со стороны определения современных научно-теоретических поисков, формирования романтического художественного процесса, создания национальной журналистской среды, строения суверенно-независимого государства, свободного гражданского общества.

## «THE FİYUZAT» AND «FİYUZATİSTS»

**Sh.VELİEV**

## SUMMARY

«The Fiyuzat» magazine, that, for reasons of policy, has not been studied for long time, and suppressed and «criticized» under the Soviets with the stain of Pan-Turкist, Pan-islamite, ets., and the followers of the magazine, «Fiyuzatist» journalists, poets, writers and playwrights occupy a highly important place in the history of social-cultural life of Azerbaijan. The historic experience of the «Fiyuzatists» at the beginning of the XX century in the creation of the environment of national journalism, in building independent state and free civil society, in forming romantic literary process is of great importance from the viewpoint of determination of the directions of our contemporary scientific-theoretical investigations.